# Azərbaycan turizmi yeni inkişaf mərhələsindədir

## *Ölkəmizə gələn turistlərin sayında 30 dəfə artım müşahidə olunur*

İsti yay günlərində insanlar daha çox istirahətə və gəzməyə üstünlük verirlər. Ona görə də yay aylarını turizm mövsümü kimi də dəyərləndirmək olar. Necə ki, turistlər daha çox yay fəslində bir ölkədən başqa ölkəyə, yaxud yaşadığı ölkənin bölgələrinə səfərə çıxırlar. Bu tendensiyanın bütün dünyada getdiyi şübhəsizdir.

Azərbaycan da ildən-ilə inkişaf edən iqtisadi, sosial və mədəni həyatı ilə ümumi axın istiqamətində irəliləyir. Yəni hər il, xüsusən də yay mövsümündə ölkəmiz xeyli sayda yerli və əcnəbi turist qəbul edir. Turistlərin sayındakı ümumi artım Azərbaycanın turizm sektorunun inkişafı ilə xarakterizə olunur.

Bu da ondan qaynaqlanır ki, turizm sektorunun inkişafı birbaşa Prezident İlham Əliyevin diqqətindədir. Bunun nəticəsidir ki, ölkədə bu sahə üzrə maddi-texniki baza ildən-ilə güclənir. Hər il 30-dan artıq mehmanxana və digər gecələmə yerləri, yeni-yeni restoran və kafelər istismara verilir, turistlərin daşınması üçün ölkəyə yeni komfort avtobuslar gətirilir və s.

### 5-6 il ərzində Bakıda beşulduzlu altı beynəlxalq hotel inşa olunub

Prezident İlham Əliyev ötən il "Şahdağ" qış-yay turizm kompleksində "Park Chalet" hotelinin açılış mərasimində demişdir: "Turizm Azərbaycanda inkişaf edir. Bir neçə turizm mərkəzi yaradılıbdır. Onlardan biri "Şahdağ"dır. Eyni zamanda, indi Naftalan turizm mərkəzi fəaliyyət göstərir. Cənub bölgəsində - Lənkəran-Astara zonasında, Lerikdə gözəl turizm imkanları var. Qəbələ turizm mərkəzinə çevrilibdir, burada beşulduzlu bir neçə hotel fəaliyyət göstərir. Qərb bölgəsində Gəncə və onun ətrafında yerləşən rayonlar da, əlbəttə ki, turizm üçün çox gözəl yerlərdir. Azərbaycanın təbiəti elədir ki, hər yerdə gözəl, səfalı məkanlar, dağlar, meşələr, çaylar çoxdur. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvətdən səmərəli şəkildə istifadə etməliyik. Belə gözəl, müasir hotellər tikilir və Azərbaycan vətəndaşlarına xidmət edir. Əlbəttə, Azərbaycanın ən böyük turizm mərkəzi Bakıdır. Bakıda indi dünyanın bütün aparıcı hotelləri fəaliyyət göstərir. Qısa müddət ərzində Bakıda beşulduzlu altı hotel tikilmişdir. Hesab edirəm ki, bu da rekord göstəricidir, 5-6 il ərzində bir şəhərdə beşulduzlu altı beynəlxalq hotel inşa olunmuşdur. Bakıya gələn hər bir qonaq paytaxtımıza aşiq olur...".

Bu gün həqiqətən də ölkənin turizm sahəsində geniş imkanlar açılıb. Turistlərin rahat, təhlükəsiz və əyləncəli vaxt keçirmələri üçün paytaxt Bakı başda olmaqla, yerlərdə xeyli işlər görülüb. Ölkəmizdəki ictimai-siyasi sabitlik, xüsusən, son illərdə daha da genişlənən beynəlxalq nüfuz əcnəbilərin Azərbaycana olan diqqətini artırıb. Bunu istər paytaxt küçələrində, istərsə də regionlarda rast gəldiyimiz turistlərin sayında da görmək mümkündür.

### BƏƏ-dən 10, İraqdan 11, İrandan isə 100 min turist gəlib

Cari ildə, xüsusən də yay mövsümündə Azərbaycana gələn turistlərin konkret sayını, eləcə də hansı bölgələrə üz tutduqlarını isə Mədəniyyət və Turizm Nazirliyindən öyrəndik.

Nazirliyin İnformasiya və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Vüqar Şixəmmədov bizimlə söhbətində bildirdi ki, bu il Azərbaycana gələn turistlərin sayı xeyli artıb. Xüsusən də, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və İran körfəzi ölkələrindən gələn turistlərin sayında ciddi artım müşahidə olunur.

Nazirlik əməkdaşı bu tendensiyanı son zamanlar dövlətin turizm siyasətində apardığı məqsədyönlü işlərin məntiqi nəticəsi kimi dəyərləndirdi. Prezident İlham Əliyev tərəfindən imzalanan müxtəlif fərman və sərəncamlar, viza rejiminin sadələşdirilməsi, vizanın hava limanındaca alınması, eləcə də, ölkənin xarici təbliğatının sürətlə inkişaf etdirilməsi, İran körfəzi ölkələri üçün BƏƏ-də, Rusiyada və Türkiyədə açılan turizm nümayəndəliklərinin fəaliyyətləri bu sahəyə öz töhfəsini verir. Onun sözlərinə görə, Rusiya və Türkiyə nümayəndəlikləri bu ilin fevral ayından, BƏƏ nümayəndəliyi isə iki il əvvəl fəaliyyətə başlayıb: "Azərbaycan regionda turizm ölkəsi kimi tanınır. 2015-ci ilin birinci yarımilində BƏƏ-dən Azərbaycana cəmi 530 nəfər turist kimi gəlmişdisə, 2016-cı ildə bu rəqəm 10 086 nəfər təşkil edib. İraqdan ötən il cəmi 376 turist gəlmişdisə, bu il 11 028 nəfər gəlib. İrandan isə ötən il 72 min turist gəldiyi təqdirdə, bu il onların sayı 96 minə çatıb. Bu isə 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə qeyri-ənənəvi ölkələrdən gələn turistlərin sayında 28-30 dəfə artım deməkdir".

Əcnəbilərin daha çox hansı bölgələrə üz tutduğuna gəldikdə isə V.Şixəmmədov belə dedi: "Həm turizm şirkətlərindən aldığımız məlumatlar, həm də nazirliyin əməkdaşlarının bölgələrdə apardığı sorğular əsasında məlum olub ki, Bakıdan əlavə, şimal istiqamətində - Quba-Qusar-Xaçmazda və şimal-qərb istiqamətində - Şamaxı, İsmayıllı, Qəbələdə turistlərin çoxluğu müşahidə edilir. Bunu da həmin bölgələrin Bakıya yaxınlığı ilə əlaqələndirmək olar".

### İnkişafla yanaşı, problemlər də var

Sözsüz ki, qeyd olunan nailiyyətlərlə yanaşı, bu sahədə bəzi problemlər də hələ qalmaqdadır. Xüsusən də qiymət bahalığı və bəzi yerlərdə xidmət səviyyəsinin aşağı olması aktual məsələ hesab olunur. Müştəri cəlb etməyin yolu xidmət haqqının aşağı salınması, əvəzində isə keyfiyyətin yüksəldilməsi, həmçinin xidmətlərin sayının artırılmasından keçir. Mütəxəssislər hesab edirlər ki, turistlərlə birbaşa təmasda olan işçilərin - ofisiant, barmen, belboy və qeydiyyatçıların peşəkarlıq səviyyələri yüksək olmalıdır. Bu kadrları hazırlayan peşə məktəbləri şəbəkəsi genişləndirilməli, təhsili olmayanların bu sahədə işləməsinə yol verilməməlidir. Eyni zamanda, xidmət mədəniyyətinin yüksəldilməsi üçün xüsusi tədbirlər həyata keçirilməlidir. Bundan başqa, turizm sahəsində bir sıra ölkələrdə əlavə dəyər vergisinə güzəştlərin Azərbaycanda da tətbiq olunmasına ehtiyac duyulur. Çünki əlavə dəyər vergisinə güzəştlərin tətbiq edilməsi birbaşa bu sektorda xərclərin azaldılmasına və qiymətlərin ucuzlaşmasına səbəb olar.

Ümid edirik ki, turizmin ümumi inkişafına təsir göstərən bu problemlər də tezliklə aradan qaldırılacaq və Azərbaycan turizm sahəsi üzrə nəinki regionda, bütün dünyada nümunə olacaq.

***Elgün MƏNSİMOV,***
***"Azərbaycan"***